# Ədəbi məclisin növbəti toplantısı

***"Qəbələ" qəzeti redaksiyasının nəzdində fəaliyyət göstərən "Qəbələnin səsi" ədəbi məclisinin növbəti toplantısı keçirilmişdir.***

***Tədbiri giriş sözü ilə məclisin rəhbəri şair Zahid Əfəndizadə açmışdır. O, giriş nitqində məclisinin fəaliyyətindən, uğurlarından danışmış, yerli yazarların bir araya gəlməsinin onların yaradıcılığında xüsusi əhəmiyyətə malik olduğunu, yeni ədəbiyyat nümunələrinin ortaya çıxmasına müsbət təsir göstərdiyini qeyd etmişdir.***

dıqlarını və qəzetlə daima sıx əlaqə saxladıqlarını bildirmişdir. Varis Yaqubov eləcə də yerli poeziya və nəsr həvəskarlarının qəzet vasitəsi ilə təbliği və yaradıcılıqlarının tədqiqi barədə görülən işlərdən danışmış, onlara yaradıcılıq uğurları arzulamışdır.

Sonra söz "Qəbələ" qəzetinin məsul katibi Qüdrət Səmədova verilmişdir. O, Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvü, şair Emin Baratoğlunun redaktorluğu və rəhbərliyilə qəzetdə geniş yer verilməsinə ehtiyac olduğunu vurğuladı. O, belə şəxsiyyətlərin daha yaxşı tanınması üçün ictimaiyyətə və geniş oxucu kütləsinə məlum olmayan tərəflərinin qabarıq işıqlandırılmasının vacib olduğunu qeyd etdi. Abid Tahirli bu istiqamətdə yaradıcılığı və həyatı haqqında cox az məlumat olan, realist nəsrimizin banilərindən biri, rus imperiya ordusunun ilk azərbaycanlı generalı Hacı İsmayıl bəy Qutqaşınlı haqqında çap etdirdiyi kitabının



Sonra "Qəbələ" qəzetinin redaktoru Varis Yaqubov çıxış edərək ərazilərdə yaradılmış müxbir postlarının fəaliyyəti barədə məclis üzvlərinə məlumat vermişdir. O, ictimai əsaslarla yaradılan və məhz məclis üzvlərinin rəhbərlik etdikləri müxbir postları tərəfindən öz ərazilərindən maraqlı və operativ məqalələrin hazırlanması və qəzetə göndərilməsinin qəzetin yeni materiallarla zənginləşməsində və oxunaqlı olmasında vacib amil olduğunu qeyd etmişdir. Xüsusilə, bu sahədə Bum qəsəbəsində yaradılan postun rəhbəri Emin Baratoğlunun və Hacıalılı ərazisi üzrə fəaliyyət göstərən postun rəhbəri Cəlil Komradlının fəaliyyətini təqdir etmiş, onların müntəzəm olaraq oxucuları düşündürən maraqlı yazılar hazırla- ədəbi məclis üzlərinin yaradıcılıq nümunələrindən ibarət almanaxın çap edilərək işıq üzü görməsi münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir. Qüdrət Səmədov ədəbi məclisin yığıncaqlarının çox lazımlı olduğunu və bu cür tədbirlərin rayonumuzda, yerli yazarların irsinin qorunub saxlanılması və təbliğ edilməsi, həvəsləndirilməsi sahəsində mühüm əhəmiyyəti daşıdığını, qəzetin isə həvəskar yazarların oxuculara tanıdılması üçün yaxşı vasitə olduğunu bildirmişdir.

Tədbirdə iştirak edən filologiya elmləri doktoru, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzü, həmyerlimiz Abid Tahirli çıxışında rayonumuzun görkəmli şəxsiyyətlərinin tədqiqi və təbliğilə bağlı yazılara ərsəyə gəlməsindən söhbət açdı, hələ məktəb illərindən məqalələrinin dərc olunduğu "Qəbələ" qəzetinə uğurlar arzuladı.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü Eldar Quliyev və Mirhəsən Ağayev çıxış edərək oxucuların qəzetin səhifələrində yaşayış məntəqələrimizin tarixi, etnoqrafiyası, tarixi abidələri, el ağsaqqalları və s. haqqında maraqlı yazılar görmək istədiklərini bildirdilər.

Daha sonra yeni şeirlərin dinlənilməsinə başlandı. Mehrəli Mehrəliyev, Cəlil Komradlı, Sədiyar Səfərəliyev, Əhməd Məmmədli, Mirzəbala Yediyarov, Qoşqar Qaraçaylı, Şahid Nağməkar və başqa yazarlar öz yeni şeirlərini oxudular.

**"Qəbələ".**

# Qəbələ çempiondur

Aprelin 16-da U-16 Liqasında 2016/17 mövsümünə yekun vurulub. "Qəbələ" çempionatın sonuncu - XXII turunda "Neftçi"ni qəbul edib. Bu matçadək komandamız 49 xalla 1-ci, paytaxt təmsilçisi 48 xalla 2-ci pillədə qərarlaşıb. Qızıl medalların taleyi baxımından böyük önəm daşıyan qarşılaşmada qalib müəyyənləşməyib - 1:1 50 xal toplayan "Qəbələ" mövsümün çempionu olub. Matçdan sonra mükafatlandırma mərasimi keçirilib, komandamıza çempionluq kuboku təqdim edilib

**"Qəbələ".**

# Təbrik edirik!

**Əzizimiz və sevimliniz Gülayı 1 yaşı münasibətilə təbrik edirik!**

**Arzu edirik ki, Gülay xoşbəxt və firavan böyüsün, valideynlərinə, bütün yaxınlarına daim başucalığı gətirsin, el-obasına, vətəninə layiqli övlad olsun.**

**Yuz yaşa, Gülay!**

***Babaların Nadir, Sahib, nənələrin Elmira, Raya, dayın Sadiq, əmin Pərviz.***



# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə **Məmmədağalı kənd sakini Allahverdiyev Səftər Məhərrəm oğluna** verilmiş JN seriyalı 030 A nömrəli (kod 40603048) **torpağın mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Mühəndis İnşaat-81 MMC-yə məxsus 1998-ci il istehsalı olan M-318 markalı, AZ 36 T-608 dövlət nömrə nişanlı traktora Qəbələ Rayon Dövlət Texniki Nəzarət Müfəttişliyi tərəfindən 25 iyun 2015-ci ildə verilmiş **TH seriyalı 026883 nömrəli qeydiyyat şəhadətənaməsi** itdiyi üçün etibarsız sayılır.

Dizaxlı kənd sakini Abuşov Razim Bəxtiyar oğluna məxsus 1987-ci il istehsalı olan «CK-5» markalı taxılbiçən kombayna Qəbələ Rayon Dövlət Texniki Nəzarət Müəfttişliyii tərəfindən verilmiş **AZ 36 T-417 saylı dövlət nömrə nişanı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **İsmayılov İsmayıl Şahhüseyn oğluna** verilmiş JN seriyalı 422 F nömrəli (kod 40608018) **torpağın mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 4 saylı qərarı ilə Nic qəsəbə sakini **Baxışov Ağalət Əlağa oğluna** verilmiş JN seriyalı 144 F nömrəli **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 9 saylı qərarı ilə Həmzəli kənd sakini **Qasımov Faiq Qasım oğluna** verilmiş JN seriyalı 094 F nömrəli (kod 40605018) **torpağın mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

«Qəbələ» qəzeti redaksiyasının kollektivi qəzetin müxbir postunun rəhbəri **Emin Baratoğluna** bacısı oğlu

**İBRAHİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov el ağsaqqalı, yaxın dostu və qonşusu

**MUSAYEV MÜSEYİB ABDUSALAM OĞLUNUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, mərhumun ailəsinə, əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Rasim Yaqubov, Əhəd Kərimxanov, Mehrəli Mehrəliyev, Eldar Quliyev və Əlövsət Aləmmədov **Emin Baratoğluna** əzizi

**İBRAHİM XANCANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi

**MÜSEYİB MUSAYEVİN**

vəfatı ilə əlaqədar mərhumun əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu ailəsi ilə birlikdə Bum qəsəbə uşaq bağçasının müdiri **Rahilə Sədirovaya və ailəsinə,** əzizləri

**QƏZALƏ SƏRDAR QIZININ**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir, kədərllərinə şərik olur.

Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin direktoru Təranə Səlimova və məktəbin pedaqoji kollektivi RİH başçısının müavini **Arif Allahverdiyevə** həyat yoldaşı

**NATƏVAN XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Mehrəli Mehrəliyev, Eldar Quliyev, Emin Baratoğlu, Rasim Yaqubov və Əlövsət Aləmmədov Bum həkim məntəqəsinin müdiri **Müsalim Musayevə** qardaşı

**MÜSEYİB MUSAYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir, kədərinə şərik olurlar.

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin pedaqoji kollektivi məktəbin sabiq müəllimi **Emin Baratoğluna** bacısı oğlu

**İBRAHİMİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

# Tədbir keçirilmişdir

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində aprel döyüşlərinin ildönümünə həsr olunmuş geniş tədbir keçirilmişdir.

Toplantını tərbiyə işləri üzrə direktor müavini Azadə Hacıyeva açmışdır. Şəhidlərin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra söz məktəbin direktoru Məlahət Dadaşovaya verilmişdir. O, çıxışında ermənilərin işğalçılıq siyasətindən, ordumuzun mətinliyindən söz açmışdır. IX sinif şagirdi Nərmin Məmmədova aprel döyüşlərində mərdliklə şəhid olan qəsəbə sakini, leytenant Sahil Şirinov haqqında öz ürək sözlərini söyləmiş, onun igidliyindən danışmışdır.

Şagirdlərdən Firəngiz Əfəndiyeva, Səidə Babayeva, Sevinc Quliyeva, Aysu Kərimova, Ziyafət Umarova, Sevinc Aləmmədova, Gülarə Əliyeva, Qənirə Rəşidova, Dilarə Zeynalova, Aysu Nəsibova Aytən Abbasova, Xumar Şəfiyeva və başqaları şəhidlərə həsr edilmiş şeirlərlə çıxış etmiş, erməni vandalizminə öz nifrətlərini bildirmişlər.

Toplantı başa çatdıqdan sonra bir qrup müəllim və şagird şəhid Sahil Şirinovun məzarını ziyarət etmiş, üstünə gül dəstələri qoymuşlar.

✍ **Emin BARATOĞLU, «Qəbələ»nin müxbir postunun rəhbəri.**

«QƏBƏLƏ» qəzetinə 2017-ci il üçün abunə yazılışı davam edir

«QƏBƏLƏ» qəzetinin reklam xidməti 205-19-14, 205-15-56

Redaktor Varis Yaqubov

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1700*